# “Zəfər yolu” səhnəyə gətirildi



***Bu günlər mədəniyyət ocaqlarında Anım Günü ilə bağlı tədbirlər keçirilir. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı da öz yeni “Zəfər yolu “ tamaşası ilə Qələbəmizin sənət nümunəsini təqdim etdi.***

Nadir hallarda teatr tamaşaları foyedən başlayır. Bu tamaşada foyedə quraşdırılmış “Səfərbərlik xidmətində” 2020-ci ilin sentyabrında olduğu kimi, “ajiotaj yaranmışdı”. Xalq artisti, rejissor Azər Paşa Nemətov tamaşa zalında yaranan bu qarışıqlıq sayəsində Vətən müharibəmiz başlanan günlərdə demək olar ki, ölkənin bütün hərbi komissarlıqlarının qarşısındakı o ajiotajı, çaxnaşmanı, cəbhəyə getmək üçün “komissarlığın” həyətində, qapısında izdiham yaradan insanları göstərmək istəmişdi.

Elə foyedə cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin 2020-ci il sentyabrın 27-də Vətən müharibəmizin başlandığını elan edən o məşhur çıxışı eşidildi. Foyedən başlanan tamaşa sonradan səhnədə dramatik hadisələrə çevrildi.

Qeyd edək ki, səhnə əsəri Mədəniyyət Nazirliyinin sifarişi ilə hazırlanıb. Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi qələbəyə ərməğan olan yeni tamaşanın rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, bəstəkarı Xalq artisti Siyavuş Kərimi, rejissoru Emil Əsgərov, rejissor assistenti isə Nərmin Həsənovadır.

Yeni yaradıcılıq işində Xalq artistləri Nurəddin Mehdixanlı, Əli Nur, Əməkdar artistlər Hicran Nəsirova, Elxan Quliyev, Mətanət Atakişiyeva, Mirzə Ağabəyli, Elnar Qarayev, Anar Heybətov, Ayşad Məmmədov, Mətləb Abdullayev, Elşən Rüstəmov, Rəşad Bəxtiyarov, aktyorlar Elçin Əfəndi, Cavidan Novruz və Vüsal Mustafayev çıxış edirdilər.

Səhnə əsərində cəbhəyə yola düşdüklərinə şahid olduğumuz oğullardan cəmi birinin ailəsinə şəhidlik xəbəri gəlir. Bu da Xalq artisti Əli Nurun canlandırdığı atanın oğlu idi. Xatırladaq ki, Əli Nurun ehtiyata buraxılan hərbçi oğlu Rövşən Nurzadə də Vətən müharibəsinə könüllü qatılmışdı və Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucalmışdı. Həyatda şəhid atası olan sənətkarımız Əli Nur səhnədə də eyni taleni yaşadı–ikinci dəfə şəhid atası olmaq qüruruna nail oldu. Tamaşada mənfur ermənilər tərəfindən xaincəsinə bombalanan Gəncə, Bərdə faciələri də unudulmamışdı. Nurəddin Mehdixanlının ailə başçısını canlandırdığı ailənin fonunda bu faciələrdəki günahsız qurbanların ümumiləşdirilmiş obrazları yaradılmışdı.

Tamaşanın çox təsirli epizodlarından biri də Azərbaycan səhnəsində əsgərlərimizin Şuşaya qalxdığını əks etdirən səhnə idi.

Tamaşada ən uğurlu tapıntılardan biri isə mükəmməl musiqidir. Vətən müharibəmizi, o günlərdə yaşadığımız ayrı-ayrı, hətta bir-birinə zidd o hissləri ən gözəl şəkildə əks etdirən musiqi Siyavuş Kərimi yaradıcılığının ən möhtəşəm nümunəsi idi.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2022.- 30 sentyabr.- S.7.